# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ TƏHLÜKƏSİZ ƏMƏK ŞƏRAİTİNİN İQTİSADİ ASPEKTLƏRİ

**Emin Məhi AĞAYEV**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, dissertant
E-mail: eminagayev1@gmail.com

***Received:*** *5 January 2026* ***Revised:*** *1 February 2026* ***Accepted:*** *25 March 2026*

**UOT:** 331.45:658.382 **JEL:** J28, J81, D24 **DOİ:**https://10.32010/GVJE1620

**Xülasə.** Məqalədə sənaye müəssisələrində iş yerlərində əməyin təhlükəsizliyi və sağlamlıq problemlərinin iqtisadi aspektləri ilə bağlı müxtəlif yanaşmalar müqayisəli təhlil edilib. Müəllif belə nəticəyə gəlir ki, bu problemə müəssisələrin gəlir və xərci, həmçinin əmək məhsuldarlığı kontekstindən yanaşılmalıdır.
Nəzərə çatdırılır ki, əməyin mühafizəsi və sağlamlığın qorunması müxtəlif elm sahələrinin, o cümlədən, iqtisad elminin predmetidir. İş yerlərində əməyin təhlükəsizliyi və sağlamlığın iqtisadi aspektləri, məsələn, müəssisənin istehsal həcminin və gəlirlərinin hesablanması zamanı hər hansı səbəbdən iş yerini tərk etmiş işçinin dərhal və ya bir müddətdən sonra əvəz edilməsi halları nəzərə alınmalıdır. Müəssisə təhlükəsiz əmək şəraiti yaratmaq üçün zəruri tədbirləri görməlidir.

**Açar sözlər:** əməyin təhlükəsizliyi, əmək məhsuldarlığı, gəlir, xərc, sağlamlıq, iş yerləri, iqtisadi aspektlər, əmək şəraiti.

## Giriş

Dünyanın əksər ölkələri iqtisadi inkişafı priroritet hesab edərək, iqtisadi artımın təmin edilməsinə səy göstərirlər. Bu halda əhalinin rifah səviyyəsinin yüksəlməsi və inklyuziv inkişaf bəzi hallarda kölgədə qalır. Digər tərəfdən, bəzi hallarda müəssisələr öz gəlirlərini və istehsal həcmini artırmaq üçün xərclərini azaltmaq, o cümlədən, əmək haqqının artırılmasına, əmək şəraitinin yaxşılaşdırılmasına o qədər də maraqlı olmurlar.

Lakin qloballaşmanın genişlənməsi və əmək bazarının bir ölkənin miqyasından çıxaraq dünya əmək bazarı mahiyyəti daşıması müəssisələrdə əmək şəraitinin yaxşılaşdırılması və iş yerlərində əməyin mühafizəsi və sağlamlığın qorunması zərurətini yaradır. Əmək bazarında tələb nə qədər az olarsa və təklif çox olarsa, onda müəssisələr əməyin mühavizəsinə və sağlamlıq üçün xərclərin artırılmasına cəhd etmirlər. Beynəlxalq Əmək Təşkilatının hesablamalarına əsasən hər il 2.3 milyondan çox işçi iş yerlərində aldıqları travmalardan və xəstəliklərdən həlak olurlar. Bəzi istehsal proseslərinin zərərli olması nəticəsində 160 milyondan çox işçi müxtəlif dərəcəli xəstəliklər, 313 milyondan çox işçi travmalar alırlar. Əlbəttə belə hadisələr müəssisələr üçün xərcsiz ötüşmür. Əksər ölkələrdə belə hallarda işçilərə verilən müvafiq kompensasiyalar, həmçinin iş şəraitinin yaxşılaşdırılması istiqamətində xərclər müəssisələrin xərclərini artırır. Beynəlxalq Əmək Təşkilatının (BƏT) hesablamalarına əsasən dünya üzrə ÜDM həcminin 4%-i istehsal travmaları və xəstəlikləri səbəbindən itirilmiş olur.

İnkişaf etməkdə olan ölkələrlə müqayisədə inkişaf etmiş ölkələrdə müəssisələrdə bədbəxt hadisələr daha tez-tez baş verir. Bunun əsas səbəbi bu ölkələrdə məşğul əhalinin böyük əksəriyyətinin təhlükəli məhsul istehsal edən sektorlarda çalışmasıdır. İnkişaf etməkdə olan ölkələrdə aqrar sektor, tikinti sektoru, meşə təsərrüfatı, balıqçılıq, hasilat sənayesi kimi təhlükəli sektorlarda iş rejimi daha çıtin və risklidir. Emal sənayesinin ətraf mühitə və sağlamlığa təsir göstərən sahələrinin inkişaf etməkdə olan

ölkələrdə yerləşdirilməsi də bu ölkələrdə riskli iş yerlərinin yaranmasının əsas səbəblərindəndir.

### Sənaye müəssisələrində əməyin təhlükəsizliyinin iqtisadi aspektləri

İş yerlərində bədbəxt hadisələrin baş verməsi, ölüm hadisələri, müxtəlif dərəcəli travmalar və xəstəliklər yalnız işçinin deyil, həm də onun ailəsinin faciələrlə üzləşməsi deməkdir. Bu, həm də milyonlarla insanın və ailənin davamlı gəlirdən məhrum olması, yoxsulluğun artması, məktəb yaşlı uşaqların təhsildən yayınması və sair yeni problemlərin yaranması deməkdir. BƏT-nın hesablamalarına əsasən aqrar sektorda 1.3 milyard insan məşğuldur. Bu sektor tikinti və dağ-mədən sektorundan sonra əməyin təhlükəsizliyi nöqteyi-nəzərindən ən riskli sektordur. Aqrar sektorda geniş həcmdə zərərli maddələrdən istifadə, iş saatlarının uzunluğu sağlamlığa ciddi rikslər yaradır. Aqrar sektorda kimyəvi maddələrdən istifadənin həcminin artması regionlarda içməli suyun və havanın çiklənməsinə, beləliklə, əhalinin sağlamlığına ciddi təsir göstərir.

Əməyin mühafizəsi və sağlamlığın qorunması müxtəlif elm sahələrinin, o cümlədən, iqtisad elminin predmetidir. Çünki bu problem bütünlükdə cəmiyyətə və iqtisadiyyata, xüsusi halda isə hər bir fərqin və ailənin həyatına aid olan problemdir. Ona görə də bu problemlə elm sahələrindən tibb elmi, ekologiya, psixologiya, texnika, iqtisad elmi və sair digər elmlər məşğul olur. Bu problemin iqtisadi və sosial-iqtisadi aspektlərinin tədqiq edilməsinin mahiyyətində insan kapitalı ilə iqtisadi artım və rifah səviyyəsi arasındakı əlaqə durur. İşçilərin sağlamlığının qorunması əmək məhsuldarlığının əsas amillərindəndir. Sağlamlıq insan kapitalının təhsillə yanaşı əsas amilidir. Bu, əmək bazarında işçinin mühüm göstəricisidir. Hər bir müəssisə çalışır ki, onun işçisi sağlam və cavan olsun. Sağlamlıq əmək məhsuldarlığının artması, müəssisənin sağlamlığa görə daha az əlavə xərclərlə üzləşməsi deməkdir. Elə bu xərclərin olması sağlamlığı zəif işçilərin, yaşlı mütəxəssislərin, potensial hamilə qadınların və sair işlə təminatında diskriminasiyalarla üzləşməsinə səbəb olur. Dünyanın əksər ölkəsində müvəqqəti iş qabiliyyətini itirmiş işçilərə müəssisə tərəfindən ödəmələrlə bağlı qanunvericiliyin olması bəzi ölkələrdə kiçik müəssisələri məcbur edir ki, onlar belə ödəmələrdən yayınsınlar.

Sənaye müəssisələrində əməyin mühafizəsinin və iş yerlərində sağlamlığın qorunmasının iqtisadi inkişafda və rifah səviyyəsinin yüksəlməsində əhəmiyyətini nəzərə alaraq, onun iqtisadi və sosial-iqtisadi aspektlərinin tədqiq edilməsi vacibdir. Bu problem əmək bazarına, əməyin məhsuldarlığına, ev təsərrüfatlarının gəlirlərinə, sosial müdafiə sisteminə, beynəlxalq ticarətə və ətraf mühitə təsir kanalları ilə makroiqtisadi və sosial-iqtisadi göstəricilərə təsir göstərirlər.

İstehsalat zədələnmələri təsadüfi baş verən hadisə olsa da bu hadisəyə münasibət üç tərəfli olur. İşçinin, müəssisənin və dövlətin münasibəti. Müəssisə işçi ilə əməyin mühafizəsi sahəsində müəyyən razılığa gələ bilər. lakin bu razılığın elə bir minimum səviyyəsi var ki, bu səviyyə dövlət tərəfindən müəyyən olunur. Müəssisə yerli qanunvericiliyə əməl edərək, ən azı bu səviyyədə əməyin mühafizəsini təşkil etməli və istehsalat zədələnmələrinin müqabilində işçiyə zəruri kompensasiya ödəməlidir. Lakin belə minimum səviyyədən əlavə olaraq, müəssisə işçi ilə razılığa əsasən əlavə ödənişlər edə bilər. Əksər hallarda belə ödənişlər əməyin stimullaşdırılması mahiyyətli olur. Əməyin stimullaşdırılmasının və onun nəticələrinin analizi əməyin mühafizəsi iqtisadiyyatının əsasını təşkil edir.

İqtisadi ədəbiyyatda əməyin mühafizəsi və gigiyenası ilə bağlı elə amillər müzakirə edilir ki, bu amillər işçinin belə təhlükəli işi seçmək lə bağlı qərarına təsir edir. Bu amillər arasında əmək haqqının miqdarı, əməyin risk səviyyəsinə görə, həmçinin baş vermiş travmalara görə əlavə ödənişlər və mükafatlar əsas rol oynayır. Müəssisələrdə əməyin mühafizəsi və gigiyenası ilə bağlı qərarların qəbuluna təsir edən amillər isə əsasən müəssisənin xərcləri ilə bağlıdır. Müəssisə əmək bazarından işçilərin qəbulu zamanı riskli işlərə görə nisbətən yüksək əmək haqqı ilə yanaşı, həm də əlavə mükafatlar verməli olur. İstehsalat zamanı travma alan işçilərə əlavə ödənişlər, o cümlədən, sığorta ödəmələri, xəstəliyə görə məzuniyyət üçün ödəmələr, kompensasiyalar və sair işçiyə yönələn ödəmələri etməli olur. Lakin müəssisənin bu problemlə bağlı xərcləri bununla bitmir. Müəssisə, əksər hallarda, dövlətə də texniki təhlükəsizlik qaydalarının pozulmasına və belə halların travmalarla

və ya ölümlə nəticələnməsinə görə cərimələr ödəməli olur.

Bazar münasibətlərinin qərarlaşdığı şəraitdə hər bir şirkət çalışır ki, onun işçiləri iş şəraitindən razı olsunlar və nə qədər mümkünsə, məhsuldarlığın artmasına çalışsınlar. Çünki belə işçilər müəssisənin imicinin yüksəlməsinə dəstək olurlar. İş şəraitindən, o cümlədən, əmək haqqından, müəssisədə əməyin təhlükəsizliyindən və sair narahat olan işçilər isə adətən əməyin keyfiyyətində maraqlı olmurlar və müəssisənin imicinin yüksəlməsinə səy göstərmirlər [1].

Qeyd edək ki, əməyin təhlükəsizliyinə və iş şəraitinin əlverişliliyinə nail olmaq müəssisə üçün əlavə xərclər yaradır. Lakin belə xərclər əməyin məhsuldarlığını artıraraq, həm müəssisənin əlavə xərclərini örtür, həm də müəssisəyə əlavə gəlir gətirir. Lakin kiçik ölçülü və bazarda özünə yer tuta bilməyən müəssisələr belə xərclərdən adətən çəkinirlər. Əməyin təhlükəsizliyi və sağlamlığın iqtisadiyyatı hər şeydən əvvəl müəssisədə əmək məhsuldarlığını əhatə edir. İqtisadi ədəbiyyatda iş şəraiti ilə əmək məhsuldarlığı arasındakı əlaqəyə həsr edilən kifayət qədər tədqiqatlara rast gəlmək olar. Belə tədqiqatlar hələ keçən əsrin axırlarından diqqəti cəlb edirdi. İqtisadi ədəbiyyatda bu problem insan resurslarının idarəedilməsi kimi mühüm problemin tərkib hissəsi kimi inkişaf edib. Belə tədqiqatların əsas nəticəsi ondan ibarət idi ki, iş sisteminə işçinin bilik və bacarığı ilə yanaşı, onun rifah səviyyəsi, iş prosesində onu əhatə edən iş şəraiti də təsir edir. İş şəraiti işçinin sağlamlığına, həyatdan zövq almasına, hətta ömürünün uzunluğuna təsir edir. Məhz iş şəraitinin əlverişli olması onun əmək məhsuldarlığına təsir edir [2]. *Sehgal S. (2012)* [3] öz tədqiqatında iddia edir ki, ofis işçilərinin əmək məhsuldarlığı ofisdə iş şəraitinin nə dərəcədə əlverişli olmasından asılıdır. Mebellərin mövcudluğu və yerləşdirilməsi, işıqlandırma səviyyəsi, səs-küyün səviyyəsi, temperatur və rütubət əmək məhsuldarlığına ciddi təsir edir. *Taivo (2020*) [4] tərəfindən aparılan tədqiqatda da iddia edilir ki, əmək məhsuldarlığı təkcə işçinin bilik və bacarığından deyil, həm də bu işçi üçün yaradılan iş şəraitindən asılıdır. Hətta əmək məhsuldarlığının 86%-nin iş şəraitindən asılı olması iddia olunur. *Taivo (2020*) öz tədqiqatında məhsuldarlığın asılı olduğu amilləri daxili və xarici amillər kimi iki qrupa ayırır. Xarici amillər iqlimlə, resursların coğrafi ərazilər üzrə paylanma səviyyəsi ilə, ölkədə fiskal və kredit siyasətlə, infrastrukturun inkişaf səviyyəsi ilə bağlıdır. Müəssisə bu amillərə təsir göstərə bilmir. Lakin elə müəssisədaxili amillər var ki, onların inkişafı və idarəedilməsi müəssisələrin menecmentindən asılıdır. Belə amillər təçkilati və texniki amillərdir. Məsələn, müəssisənin digər müəssisələrlə inteqrasiya səviyyəsi, istehsalın ölçüsü və sair. Müəssisələrin idarəedilməsindən asılı olan amillər sırasına həmçinin insan amillər də daxildir. Belə ki, işçilərlə münasibətlər, iş şəraiti, həmkarlar təşkilatının fəaliyyəti və sair.

Əməyin təhlükəsizliyi və iş yerində sağlamlıq deyəndə biz təkçə fiziki travmaları, ölüm hallarını, zədələnmələri deyil, həm də psixoloji şəraiti nəzərə almalıyıq. Çünki iş yerlərində bədbəxt hadisələrin, demək olar ki, hamısı təsadüfən baş verir və onların qarşısının alınmasında və ya azaldılmasında psixoloji əlverişli iş şəraitinin mühüm əhəmiyyəti var. Əgər müəssisədə işçilər arasında və işçilərlə menecerlər arasında normal psixoloji münasibət varsa, bədbəxt hadisəyə səbəb ola bilən hər bir addım əvvəlcədən diqqətlə izlənilir və mümkün olan səviyyədə aradan qaldırılır. Lakin buna baxmayaraq, belə halların baş verməsini tamamilə aradan qaldırmaq mümkün olmur. Bütün hallarda işəgötürən çalışmalıdır ki, iş şəraiti elə olsun ki, işçinin təhlükəsizliyi və sağlamlığı qorunsun. Belə təhlükəsiz iş şəraitinin yaradılması ilə bağlı tədqiqatlarda müxtəlif təkliflər elmi cəhətdən əsaslandırılır. Məsələn, Akbari və digərləri (2013) [5], həmçinin *Ismail və digərləri*[6] iş yerlərində fiziki amillərin, o cümlədən, işıqlandırmanın və səs-küyün optimallaşdırılmasını vacib hesab edirlər. *Tompa və digərləri (2010)* [7], *Beevis və Slade (2003 )* [8], *Goggins (2008)* [9] və başqaları erqonomik iş şəraitinin yaradılmasını və inkişaf etdirilməsini təklif edirlər. *Ajila və Abiola (2004)* [10] iş yerlərində təhlükəsizliyin və adekvat əmək haqının təmin edilməsini vacib hesab edir. İş yerlərində mükafatlandırma sisteminin, xüsusilə, karyera qurulmasına imkan verilməsini vacib hesab edən tədiqqatlar da var. Məsələn, *van Vegchel və digərləri (2002)* [11] mükafatlandırma sistemi ilə işçilərin sağlamlığının qorunması arasındakı disbalansı tədqiq edərək belə nəticəyə gəlirlər ki, iş şəraitindən

asılı olaraq, müxtəlif səviyyəli mükafatlar təyin edilməlidir.

Sənaye müəssisələrində əməyin təhlükəsizliyi və sağlamlığın qorunması məsələsi digər aspektlərlə yanaşı, həm də iqtisadi aspektə malikdir. Baxmayaraq ki, bu problem ilk baxışda iqtisadiyyatdan uzaqdır. Belə ki, işçi ilə işə götürən arasında bağlanan müqavilədə bu problemin iqtisadi tərəfləri o qədər də aydın hiss edilmir. Lakin əməyin təhlükəsizliyi məsələsi birbaşa işçinin sağlamlığı və iş qabiliyyətinin bərpası ilə bağlı olsa da müəssisənin xərcləri və əmək məhsuldarlığı məsələlərinə də müəyyən dərəcədə aidiyyəti var. Digər tərəfdən, işçi qüvvəsinin sağlamlığının təmin edilməsi bütünlükdə iqtisadiyyatın inkişafı üçün zəmindir. Beləliklə, əməyin mühavizəsi və iş yerlərində sağlamlığın qorunması həm də iqtisadiyyatın predmetidir və bu problemin həllində iqtisad elminin rolunun öyrənilməsi mühüm əhəmiyyətə malikdir.

Müəssisələrdə əməyin təhlükəsizliyi və sağlamlıq problemlərinin iqtisadi aspektdən qiymətləndirilməsi zamanı müxtəlif metodlar tətbiq edilir. *Drummond (1997*) [12] belə hesab edir ki, belə qiymətləndirmələr edilərkən onları 1) xərclərə; 2) məhsul buraxılışı həcminə; 3) hər iki metodun birgə tətbiqinə uyğun olaraq fərqləndirmək lazımdır. Xərclərlə bağlı metod tətbiq edilən zaman həm xəstəliklərə görə ödəmələr, həm də xəstəliklərlə bağlı, lakin dolayısı ilə olan xərclər nəzərə alınmalıdır. Belə qiymətləndirmələr imkan verir ki, müəssisələrdə bədbəxt hadisələr səbəbindən müəssisənin üzləşdiyi xərclərin pulla ifadəsini müəyyən etmək mümkün olsun. *Tompa və digərləri (2006)* [13] iş yerlərində təhlükəsiz əmək və sağlamlıqla bağlı 23 tədqiqatı müqayisəli təhlil edərək belə nəticəyə gəliblər ki, bu problemin iqtisadi aspektlərinə az diqqət yetirilir. Digər tərəfdən, belə tədqiqatlar üçün metodoloji baza hələ kifayət qədər təkmil deyil.

Sənaye müəssisələrində təhlükəsiz əmək şəraitinin iqtisadi aspektləri rentabelliyin analizinin də aparılmasını zəruri edir. Rentabellik və iqtisadi səmərəliliyin hesablanması zamanı əksər hallarda natural vahidlərdən, məsələn, iş yerində nə qədər bədbəxt hadisələr baş verib, ölüm halları nə qədər olub və sair. Belə göstəricilərin maliyyə hesabına gətirilməsi çətindir. Bu problemin iqtisadi aspektinin əsasında xərclər və gəlirlər dayanır. Bu isə problemin toxunduğu tərəflərdən yalnız birinin-iş verənin maraqları ilə bağlıdır. Lakin iş yerində əməyin təhlükəsizliyi və sağlamlıq problemləri birbaşa işçinin və onun ailəsinin rifahına, həmçinin dolayısı ilə cəmiyyətin inkişaf səviyyəsinə təsir edir.

Əməyin təhlükəsizliyinin və iş yerlərində sağlamlığın qorunması ilə bağlı iqtisadi kateqoriyalardan biri də itirilmiş istehsalın dəyəridir. Belə ki, müəssisədə baş vermiş hər hansı bədbəxt hadisə, istehsalat travması müəssisədə bir və ya bir neçə işçinin iş qabiliyyətinin müvəqqəti və ya daimi itirilməsi deməkdir. Bu həmçinin həmin işçinin müvəqqəti olaraq, digərləri ilə əvəz edilmədiyi halda müəyyən həcmdə dəyərin itirilməsidir. Bütünlükdə isə travma alan işçinin ölkənin əmək resurslarından kənarda qalması və müəyyən həcmdə istehsal dəyərinin itkisi baş verir. Belə hallarda itkinin hesablanması üçün insan kapitalı metodundan istifadə edilir və sağlamlığına görə işləməyən işçinin bir saata və ya bir gündə yaratdığı əlavə dəyər onun olmadığı saatlara və ya günlərə vurularaq cəmi itki hesablanır. Məsələn, *van Tulder və digərləri (1995)* [14] *və Hawkins və digərləri (2007)* [15] bu metoddan xəstəliklərin makroiqtisadi xərclərinin hesablanmasında istifadə ediblər.

*van Tulder və digərləri (1995)* Niderlandda bel ağrıları səbəbindən işdən yayınmanın iqtisadiyyata verdiyi zərər hesablanıb. Əlbəttə belə ağrıların səbəbi bütün hallarda iş yerlərində əməyin təhlükəsizliyi ilə bağlı deyil. Lakin əksər ölkələrdə, xüsusilə, inkişaf etmiş ölkələrdə, hər hansı müəssisədə çalışan işçinin belə problemləri çıxarsa və onlar müvəqqəti olaraq, işləmək imkanında olmazlarsa, onda müəssisə onların əmək haqqının müəyyən hissəsini ödəməyə borcludur. Məsələn, Niderlandda hələ keçən əsrin 90-cı illərində belə ödəmələrin həcmi ÜDM həcminin 1.7%-ni təşkil edirdi. Yalnız bir xəstəliyə-bel sütunu ilə bağlı xəstəliyə görə bu qədər məbləğin ödənilməsi iqtisadiyyata ciddi təsir edir. Nəzərə alınsa ki, bu ölkədə hərəkətlə bağlı xəstəliklər öz xərcinə əsasən beşinci yerdədir, onda digər xəstəliklərin də iqtisadi nəticələrinin cəminin xeyli yüksək olduğunu iddia etmək olar. Hətta Niderland üzrə bel sütunu ağrısının iqtisadiyyata vurduğu zərər 1991-ci ildə 4.6 milyard dollardan çox olub. Buna görə də əmək qabiliyyətli insanların

xəstələnməsi və iş yerlərini müvəqqəti və ya daimi tərk etməsi nəinki ciddi tibbi problemdir, həm də ciddi iqtisadi problemdir.

İş yerlərində əməyin təhlükəsizliyi və sağlamlığın iqtisadi aspektləri, məsələn, müəssisənin istehsal həcminin və gəlirlərinin hesablanması zamanı hər hansı səbəbdən iş yerini tərk etmiş işçinin dərhal və ya bir müddətdən sonra əvəz edilməsi halları nəzərə alınmalıdır. Belə ki, belə işçilər üçün müalicə müddətində kompensasiyanın verilməsi və ya əməyin təhlükəsizliyinə əməl edilmədiyinə görə müvafiq dövlət orqanlarına cərimələrin ödənilməsi xərcləri təşkil etdiyi kimi gəlirlərin də bərpası nəzərə alınmalıdır. Əgər əmək bazarında işsizlik səviyyəsi yüksəkdirsə, yeni işçilərin işə qəbulu tez baş verə bilər. Lakin elə ola bilər ki, müvafiq ixtisasda işçilərin işə qəbulu ciddi problem yarada bilər. Çünki əmək bazarında ixtisaslı işçilərin təklifinin az olması səbəbindən, onlarla yeni və ciddi güzəştlərlə müqavilə bağlamaq zərurəti yarana bilər. Digər tərəfdən, yeni işçilərlə təlimlərin keçirilməsi də əlavə xərclər yaradır.

*Koopmanschap və digərləri (1995)* [16] tərəfindən aparılan tədqiqatda xəstəliklərin yaratdığı dolayı xərclərin hesablanması metodu təklif edilir. Belə xərclər friksion xərclərə daxildir. Friksion xərclər maliyyə transaksiya əməliyyatlarının həyata keçirilməsi ilə bağlı olan xərclərdir. Müəssisədə baş verən bədbəxt hadisələrə görə və ya digər səbəbləırdən müvəqqəti olaraq işləmək qabiliyyətini itirmiş işçinin əvəzinə yeni işçinin dəvət olunması müddəti müxtəlif amillərdən asılı olur. Belə amillər sırasında əmək bazarının vəziyyəti xüsusi rol oynayır. Əgər əvəz edilməsi zəruri olan işçi yüksək ixtisaslıdırsa, əvəzedicinin dəvət edilməsi müddəti daha uzun ola bilər. *Koopmanschap və digərlərinin (1995)* hesablamalarına əsasən, müəssisənin üzləşdiyi itkilərin friksion xərc metodu ilə hesablanması belə itkilərin insan kapitalı metoduna əsasən hesablanan həcmindən az olur.

Əməyin təhlükəsizliyi və sağlamlığın qorunması üzrə tənzimləmə və zəruri hallarda stimullaşdırma məsələləri *Torén və Sterner (2003)* [17] tərəfindən aparılan tədqiqatda öz əksini tapıb. Onlar əmək haqqına mükafatlandırıcı əlavələrin edilməsini təklif edirlər. Onlar belə hesab edirlər ki, iş yerlərində təhlükəsiz əməyin və sağlamlığın təmin edilməsi üçün hüquqi normalar zəruridir, lakin kafi deyil. Hüquqi normalara iş yerlərindəki bəzi qadağalar, vergilər və sair aiddir. Vergilər dövlət tərəfindən, yəni hüquqi norma olaraq qəbul edilsə də, iqtisadi stimul kimi də qəbul edilə bilər. lakin əsas iqtisadi stimul olaraq, sığorta sisteminin inkişaf etdirilməsinə ehtiyac var. Belə sığortalama həm işçilər, həm də işə götürənlər oluna bilər. Sığorta sistemi əməyin təhlükəsizliyinə və sağlamlığa görə profilaktik tədbirlərin vaxtında görülməsinə imkan verə bilər.




**Şəkil. Əməyin təhlükəsizliyinin təmin edilməsi üçün hüquqi tənzimləmə və iqtisadi stimullaşdırma. Mənbə:** ***Torén və Sterner (2003)***

Dorman (2007) [18] tərəfindən aparılan tədqiqatın nəticələrinə əsasən, Müəsisələrin friksion xərclərlə bağlı rastlaşdığı problemlərin mühüm hissəsi xarici təsirlərlə bağlı olur. Müəssisənin öz daxilində təhlükəsizliyin təmin edilməməsi səbəbindən baş verən bədbəxt hadisələrə görə xərclər friksion xərclərin yalnız müəyyən hissəsini təşkil edir. İnkişaf etmiş ölkələrdə müəssisələrdə baş verən bədbəxt hadisələrə və işçilərin digər xəstəlik hallarına görə ödəmələr birləşdirilir və müəssisə ilə birlikdə

dövlət tərəfindən ödənilir. İnkişaf etməkdə olan ölkələrdə isə belə xərclərin mühüm hissəsini fərdlər və ailələr ödəməli olurlar. Buna görə də əməyin təhlükəsizliyi və iş yerlərində sağlamlığın qorunması problemləri üzrə dövlətin iqtisadi subyektlərin fəaliyyətinə müdaxilə etməsi nəinki mümkündür, hətta zəruridir.

**Nəticə:**

İş yerlərində əməyin təhlükəsizliyi ilə bağlı problemlərin iqtisadi aspektlərinin analizi zamanı mühüm əhəmiyyət daşıyan amillər sırasına əmək qabiliyyətini itirmiş işçinin işdə olmaması müddətini və ya təhlükəsizliklə bağlı erqonomik tədbirlərin həyata keçirilməsi üçün tələb olunan zaman, təhlükəsizlik əmək şəraiti ilə bağlı yaranan xərclərin və ya gəlirlərin həcmi, həmçinin əlavə xərclər daxil edilə bilər. Müəssisə təhlükəsiz əmək şəraiti yaratmaq üçün istehsal sexlərində və ya ofisdə zəruri tədbirləri görməli olur. Bu tədbirlərin həyata keçirilməsi müəyyən zaman tələb edir. Digər tərəfdən, erqonomik tədbirlərin görülməsi təkcə zaman deyil, həm də əlavə xərclər tələb edir. Lakin bu xərclər iş şəraitini yaxşılaşdırmaqla gələcəkdə məhsuldarlığı artıra və müəssisəyə əlavə gəlir gətirə bilər. Ona görə də erqonomik tədbirlər üçün xərclərin hesablanması ilə yanaşı, həm də potensial gəlirlərin də hesablanmasına ehtiyac var. Erqonomik xərclər, yaxud əməyin təhlükəsizliyinə əməl edilmədiyinə görə yaranan xərclər əlavə xərclər kimi də hesablanmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Rezagholi M, Bantekas A. Making economic social decisions for improving occupational health – a predictive cost-benefit analysis. Occup Med Health Aff. 2015;3:6. https://doi.org/10.4172/2329-6879.1000225.
2. Akinyele ST (2007). A Critical Assessment of Environmental Impact on Workers Productivity in Nigeria. Res. J. Bus. Manage. 1(1): 50-61
3. Sehgal S. Relationship between work environment and productivity. Int J Eng Res Appl. 2012;2:1992–5.
4. Taiwo AS. The influence of work environment on workers' productivity: a case of selected oil and gas industry in Lagos, Nigeria. Afr. J Bus Manag. 2010;4:299–307.
5. Akbari J, Dehghan H, Azmoon H, Forouharmajd F. Relationship between lighting and noise levels and productivity of the occupants in automotive assembly industry. J Environ Public Health. 2013;2013:527078. https://doi.org/10.1155/2013/527078.
6. Ismail AR, MRA R, Makhbul ZM, Meier C. Optimization of environmental factors: a study at Malaysian automotive industry. Eur J Sci Res. 2009;27:500–9.
7. Tompa E, Dolinschi R, Oliveira C, Amick BC 3rd, Irvin E. A systematic review of workplace ergonomic interventions with economic analyses. J Occup Rehabil 2010;20:220–234.
8. Beevis D, Slade IM. Ergonomics – costs and benefits. Appl Ergon. 2003;34:413–8.
9. Goggins RW, Spielholz P, Nothstein GL. Estimating the effectiveness of ergonomics interventions through case studies: implications for predictive cost-benefit analysis. J Saf Res. 2008;39:339–44.
10. Ajila C, Abiola A. Influence Of rewards on workers performance in an organisation. J Soc Sci. 2004;8:7–12.
11. van Vegchel N, de Jonge J, Bakker AB, Schaufeli WB. Testing global and specific indicators of rewards in the effort – reward imbalance model: does it make any difference? European Journal of Work and Organizational Psychology. 2002;11:403–21.
12. Drummond MF, editor. Methods for the economic evaluation of health care programmes. 2nd ed. Oxford: Oxford University Press; 1997.
13. Tompa E, Dolinschi R, de Oliveira C. Practice and potential of economic evaluation of workplace-based interventions for occupational health and safety. J Occup Rehabil. 2006;16(3):367–92.
14. van Tulder M, Koes B, Bouter L. A cost-of-illness study of back pain in The Netherlands. Pain. 1995;62(2):233–40.
15. Hawkins K, Wang S, Rupnow MFT. Indirect cost burden of migraine in the United States. J Occup Environ Med. 2007;49(4):368–74.
16. Koopmanschap M, Rutten FH, van Ineveld BM, van Roijen L. The friction cost method for measuring indirect costs of disease. J Health Econ. 1995;14(2):171–89.
17. Torén K, Sterner T. How to promote prevention—economic incentives or legal regulations or both? Scand J Work Environ Health. 2003;29(3):239–45.

18. Dorman P. The economics of safety, health and well-being at work: an overview. Geneva: International Labour Organisation (ILO); 2000 [cited 4 September 2007]. Available from:http://www.ilo.org/public/english/protection/safework/papers/ecoanal

## ECONOMIC ASPECTS OF SAFE WORKING CONDITIONS IN INDUSTRIAL ENTERPRISES

**Emin Mahi AGHAYEV**
Doctoral Researcher, Azerbaijan State Oil and Industry University
E-mail: eminagayev1@gmail.com

**Abstract:** The article presents a comparative analysis of various approaches to the economic aspects of occupational safety and health issues in industrial enterprises. The author concludes that this issue should be considered in the context of enterprise revenues and costs, as well as labor productivity.
It is emphasized that occupational safety and health protection constitute the subject matter of various scientific disciplines, including economics. The economic aspects of occupational safety and health in workplaces should be taken into account when calculating an enterprise's production volume and revenues, particularly in cases where an employee leaves the workplace for any reason and must be replaced either immediately or after a certain period. Therefore, enterprises should implement the necessary measures to ensure safe working conditions.
**Keywords:** occupational safety, labor productivity, revenue, cost, health, workplaces, economic aspects, working conditions.

## ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ БЕЗОПАСНЫХ УСЛОВИЙ ТРУДА НА ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ

**Эмин Махи АГАЕВ**
Диссертант Азербайджанского государственного университета нефти и промышленности
E-mail: eminagayev1@gmail.com

**Резюме:** В статье проведён сравнительный анализ различных подходов к экономическим аспектам вопросов охраны труда и здоровья работников на промышленных предприятиях. Автор приходит к выводу, что данную проблему следует рассматривать в контексте доходов и расходов предприятия, а также производительности труда.
Отмечается, что охрана труда и сохранение здоровья являются предметом изучения различных научных дисциплин, включая экономическую науку. Экономические аспекты безопасности труда и охраны здоровья на рабочих местах должны учитываться при расчёте объёмов производства и доходов предприятия, в частности в случаях, когда работник по той или иной причине покидает рабочее место и возникает необходимость его немедленной либо отсроченной замены. В связи с этим предприятие должно принимать необходимые меры по обеспечению безопасных условий труда.
**Ключевые слова:** безопасность труда, производительность труда, доход, расходы, здоровье, рабочие места, экономические аспекты, условия труда.